# GÖN-DƏRİ MƏMULATLARI İSTEHSALININ İNKİŞAFI AZƏRBAYCAN İQTİSADİYYATININ ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

## ARAŞDIRMA SƏNƏDİ



2023

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# GÖN-DƏRİ MƏMULATLARI İSTEHSALININ İNKİŞAFI AZƏRBAYCAN İQTİSADİYYATININ ŞAXƏLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Araşdırma sənədi**

**Müəllif: Hümbət Əliyev**

**Ekspert: Azər Mehtiyev**

**Bakı – 2023**

# 1. Mündəricat

1. Mündəricat ........ 3
2. Giriş ........ 4
3. Azərbaycanda gön-dəri məmulatları istehsalının müasir vəziyyəti ........ 5
4. Ölkədə gön-dəri məmulatları istehsalının stimullaşdırılmasına yönəlik addımlar ........ 12
5. Dəri istehsalının texnoloji mərhələləri ........ 14
6. Nəticə və tövsiyələr ........ 17

## 2. Giriş

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi onun dinamik inkişafına, güclənməsinə, dayanıqlığının təmin edilməsinə təsir edən mühüm amildir. Azərbaycan hazırda iqtisadiyyatı resurs gəlirlərindən asılı olan və şaxələndirmə problemini yaşayan ölkələrdən biridir. 2010-cu illərdən başlayaraq iqtisadiyyatın şaxələndirilməsi hədəfi müxtəlif dövlət proqramlarının əsas məqsədləri sırasında qeyd olunur. Xüsusilə də 2012-ci ilin dekabrında imzalanan "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının başlıca hədəfi iqtisadiyyatın şaxələndirilməsi məsələsi idi.

Bundan sonra Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı **"**Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq olundu. Həmin Sərəncamla ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün əsas seçilən iqtisadiyyat sahələri də müəyyən edildi və həmin sahələrin inkişafının strateji yol xəritələri təsdiq edilmişdi. Ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədindəki beş Milli Prioritetdən birincisi "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" kimi müəyyən edilib. Bu prioritetə nail olmaq üçün ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft-qaz sektorunda fərqli istehsal sahələrinin inkişaf etdirilməsi və rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması təmin edilməlidir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda (Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilib) vurğulanıb ki, ölkədə "davamlı və yüksək iqtisadi artım"ın təmin olunması məhz "ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına" ola bilər.

Bu məqalədə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üçün potensial imkanlara malik sahələrdən biri kimi gön-dəri məmulatları istehsalı sahəsi araşdırılır. Araşdırma çərçivəsində ölkəmizdə bu istehsal sahəsinin inkişaf vəziyyətinin öyrənilməsinə, onun daha da inkişaf etdirilməsi üçün mövcud potensial imkanlarının aşkara çıxarılmasına və belə imkanların reallaşdırılması üçün həyata keçirilməsi zəruri olan siyasət addımlarının müəyyən edilməsinə cəhd edilib.

## 3. Azərbaycanda gön-dəri məmulatları istehsalının müasir vəziyyəti

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı deyəndə diqqətə gələn əsas sahələrdən biri də əvvəllər "yüngül sənaye" kimi adlandırılan sahəyə daxil olan istehsal sahələridir. Hələ sovet dövründə Azərbaycanda yüngül sənayeyə daxil olan sahələr xeyli inkişaf etmişdi: XX əsrin 80-ci illərində Azərbaycandakı sənaye istehsalının təqribən 20 faizi məhz yüngül sənaye sahələrinin payına düşürdü. O zamanlar Azərbaycanda inkişaf etmiş yüngül sənaye sahələrindən biri də gön-dəri və ondan hazırlanan məmulatların istehsalı idi. Hazırda ölkəmizdə gön-dəri emalı və ondan son hazır məhsulların istehsalı vəziyyəti aşağıdakı qrafikdə (*Qrafik 1*) əksini tapıb.[1]

**Qrafik 1. Dəri və ayaqqabıların istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**




***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Dəri məmulatlarının istehsalının dəyər ifadəsi həcmi 2005-ci ildən artmağa başlayıb. 2012-ci ildə ən yüksək həddə - 29.6 milyon manata çatıb. Sonrakı dövrlərdə azalma tendensiyası müşahidə edilib və 2015-ci ildə 2007-ci ildən sonra ən aşağı həddə - 12.2 milyon manata düşüb. 2016-cı ildən başlayaraq yenidən artım tendensiyası müşahidə edilib və 2018-ci ildə 26.1 milyon manata qədər yüksəlib. Sonrakı dövrlərdə qeyri-sabit tendensiya nümayiş edirib. *(Qrafik 2)*

[1] https://www.stat.gov.az/source/industry/az/014_6.xls

**Qrafik 2. Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı,**

**faktiki qiymətlərlə (milyon manat)**




***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Azərbaycanda dəri məmulatlarının növləri arasında əsasən ayaqqabı istehsalı geniş yayılıb. Hazırda il ərzində ölkədə 1 milyon cütdən çox ayaqqabı istehsal olunur.[2] Ölkə tarixində ən aşağı istehsal göstəricisi 1999-cu ildə qeydə alınıb - 54 min cüt ayaqqabı. Sonrakı illər ayaqqabı istehsalında artım baş vermiş və istehsalın miqdarı 2009-cu ildə 857.8 min cütə çatıb. Növbəti illərdə istehsalda kəskin azalmalar müşahidə olunsa da (2015-ci ildə 87.9 min cüt), 2019-cu ildən yenidən istehsal yenidən artmağa başlayıb. 2021-ci ildə ölkədə 1 milyon 214 min cüt ayaqqabı istehsal olunub (Qrafik 3).

**Qrafik 3. Ölkədə ayaqqabı istehsalının dinamikası (min cüt)**




[2] https://www.stat.gov.az/source/industry/az/009.xls

***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Hazırda Azərbaycan ayaqqabı istehsalının həcminə görə post-sovet ölkələri arasında sonuncu yerlərdən birini tutur.[3] Rusiyada 2018-ci il 122.9 milyon cüt ayaqqabı istehsal edilib ki, bu da 2015-ci illə müqayisədə 31.2 milyon cüt çoxdur. Ancaq Rusiyada 2020-ci ildə 93.6 milyon cüt ayaqqabı istehsal edilib. Hazırda Azərbaycan MDB məkanında Ermənistandan sonra ən aşağı istehsal göstəricisinə sahibdir. Statistik məlumatlara əsasən, 2019-cu ildə əhalinin hər nəfərinə düşən ayaqqabı cütü (0.02) miqdarına görə Azərbaycan ən sonda qərarlaşıb.

2021-ci ildə ölkədə dəri və dəri məmulatları, ayaqqabı istehsalı ilə məşğul olan müəssisələrin sayı 2015-ci illə müqayisədə artaraq 23-dən 32-ə yüksəlib. Bu müəssisələr arasında yalnız biri - “Bakı Ayaqqabı Fabriki” - dövlət müəssisəsidir ki, o da yaxın dövrdə özəlləşdirilib. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (ƏMDX) “Bakı Ayaqqabı Fabriki” ASC-nin səhmlərinin 85 %-nin və əmək kollektivi üzvlərinə səhmlərin güzəştlə satışından qalan hissəsinin satışı üzrə elan etdiyi investisiya müsabiqəsinin qalibi “Pepi-Əli Kəndli Təsərrüfatı” MMC olub. Həmin şirkətlə imzalanmış alqı-satqı müqaviləsinin şərtlərinə görə, şirkət müəssisənin səhmlərini almasına görə dövlət büdcəsinə 3,5 milyon manat köçürməyi, yaxın 2 il 6 ay ərzində isə müəssisəyə 5,5 milyon manatlıq investisiya yönəldəcəyinə söz verib. Şirkətin İnvestisiya Proqramı çərçivəsində müəssisəyə müasir avadanlıqların alınması, tikililərin təmiri və yenidən qurulması, müəssisənin xammal bazasının artırılması, infrastrukturun təkmilləşdirilməsi, 110 yeni iş yerinin yaradılması, müəssisənin əsas xammal bazasını təşkil edən dərilərin alınması sahəsində yerli istehsalçılarla əməkdaşlığın qurulması planlaşdırılır.

Gön dəri və dəri məmulatları istehsalı sahəsində hüquqi şəxslərlə yanaşı fərdi sahibkarlar da fəaliyyət göstərirlər. Bu sahədə qeydə alınmış fərdi sahibkarların sayı 2015-ci ildə 177 nəfər, 2021-ci ildə isə 186 nəfər olub. (Qrafik 4)

**Qrafik 4. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı ilə məşğul olan sahibkarların sayı**

[3] https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/industry_2022.zip




***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı ilə məşğul olan müəssisələrin işinin ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahə payı çox azdır. Belə ki, bu göstərici demək olar ki, hər il sabit qalaraq 0.1 faiz həcmində olmaqdadır. Ayaqqabı istehsalı əsasən Bakı, Abşeron, Naxçıvan və Quba rayonun ərazisində qeydə alınıb. (Qrafik 5)

**Qrafik 5. Ərazilər üzrə ayaqqabı istehsalı, min cütlə**




***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Qrafikdən göründüyü kimi, Abşeron və Qubada ayaqqabı istehsalına 2020-ci ildən başlanılıb. 2020-ci ildən başlayaraq həmin ərazilərində müəssisələr qurulub və göstəricilər artıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 2015-ci ilə qədər olan dövrdə 800-1200 kv.metr civarında dəri istehsal olunub. Qrafik 1-dən görünür ki, aşılanmadan başqa digər emala məruz qalmayan dərinin miqdarı 2015-2019-cu illərdə müəyyən qədər sabit templə artıb. Ancaq 2019-2021-ci illərdə kəskin fərqlər yaranıb. Belə ki, 2020-ci ildə kəskin azalaraq 1944,3 tondan 716,2 tona düşsə də, 2021-ci ildə 4.6 dəfə artaraq 3301.4 tona çatıb.

Qeyd etmək lazımdır ki, hökumət xam dəri ixracını məhdudlaşdırmaq üçün bir sıra qərarlar qəbul edilib. 2016-cı ildən etibarən ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələrinə dəyişiklik edərək xam dəri məmulatları 5 il müddətində ixrac rüsumuna cəlb edib. Qərara əsasən, 2016-cı ilin noyabr ayının 5-dən başlayaraq iribuynuzlu və xırdabuynuzlu mal-qaranın və ya atlar fəsiləsi heyvanlarının dəriləri ixrac rüsumuna cəlb edilir və hər ton üçün 500 ABŞ dolları məbləğində rüsum tutulur. 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə gön-dəri istehsalına önəm verilir və bu mallar potensial ixrac məhsulları qrupuna daxil edilir. Sənəddə bu məhsulların istehsalının və ixracının daha da artırılması üçün dəstək mexanizmlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur. Bundan əlavə daxili bazarı qorumaq üçün hökumət tədbirlərə əl atır. Dəri məmulatlarının idxalına gömrük rüsumları, eləcə də, vergilər tətbiq edilir. 2016-cı ildən etibarən idxal mallarına qarşı verginin həcmi daha çoxaldılır.

2016-cı ildə Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, ölkəyə gətirilən xəz-dəri məmulatları aksiz vergisinə cəlb olunur. Prezidentin 2016-cı il fərmanı ilə üstü təbii dəridən olan ayaqqabılar, təbii dəridən geyim əşyaları və digər məmulatların ixracı zamanı gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 6 faizi məbləğində vəsait ödənilir.

Dəri sektorunu araşdırarkən onun ixrac və idxal göstəricilərinə nəzər yetirmək olduqca vacibdir. Hökumətin qəbul etdiyi strateji yol xəritələrində gön-dəri məmulatları idxalı əvəz etmək potensialı olan emal sənayesi məhsulları qrupuna aid edilib. Həmçinin bu sənədlər gön-dəri sənayesi məhsullarının emalının inkişaf etdirilməsini də nəzərdə tutur. Bildirilir ki, bu sənədlərdə əsas məhsullara şamil edilən xüsusi alətlər və stimullar paketinin hazırlanması nəzərə alınıb. Paketə əsasən, gön-dəri məhsulları üzrə daha əlverişli regionların müəyyənləşdirilməsi əsasında dövlətin tətbiq etdiyi daha effektiv vasitələri və dəstək paketlərinin tətbiqini nəzərdə tutur. Xüsusən də ailə təsərrüfatlarının istehsal potensialından tam istifadə etmək üçün rayon səviyyəsində orta, kənd səviyyəsində kiçik yun və gön-dəri emal müəssisələri şəbəkəsinin formalaşdırılması istiqamətində müxtəlif inkişaf proqramları hazırlanacaqdır. Yol Xəritəsinə əsasən, 2017–2020-ci illərdə pambıq, barama, yun, göndəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsini qarşısına prioritet olaraq qoyub.

Daxili istehsalın idxal xammalından asılı olmasıma rəğmən, ölkənin yerli dəri xammalı ixrac olunur.[4] Qrafik 6-da əks olunmuş 10 illik ixrac dinamikasını baxsaq görərik ki, 2012-2016-cı illər arası ölkədən 81.6 milyon dollar həcmində dəri ixrac olunub. Bunların 61.1 milyon dollarını

[4] https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/trade_2022.zip

iribuynuzlu, 20.5 milyon dollarını isə xırdabuynuzlu heyvanların dəriləri təşkil edir. Son 5 ildə ümumi xam dəri ixracının həcmi 53.6 milyon dollar olub. İribuynuzlu heyvanların dəriləri hesabına ölkəyə 47.5 milyon dollar, xırdabuynuzlu heyvanların dəriləri hesabına isə 6.1 milyon dollar vəsait daxil olub.

**Qrafik 6. Xam dəri ixracının dinamikası, min dollarla**




***(Mənbə: Dövlət Statistika Komitəsi)***

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə ölkəyə 499 min dollar, 2018-cü ildə 1329.5 min dollar, 2019-cü ildə 557.6 min dollar, 2020-ci ildə 429.4 min dollar, 2021-cı ildə 552.2 min dollar məbləğində emal olunmamış gön və aşılanmış dəri idxal olunub.

**Cədvəl 1: 2021-ci ildə Azərbaycanın xam dəri idxalında ölkələrin payı**[5]

| **Xam dərilər (xəzdən başqa)** | |
|---|---|
| **Ölkələr** | **Ticarət dəyəri (dollarla)** |
| Çin | 2.804.631 |
| Honk Kong | 3.859 |

5 https://comtradeplus.un.org/TradeFlow?Frequency=A&Flows=M&CommodityCodes=41&Partners=31&Reporters=all&period=2021&AggregateBy=none&BreakdownMode=plus

| | |
|---|---|
| Portuqaliya | 146.172 |
| Hindistan | 608.464 |
| Türkiyə | 14.709.873 |
| Ukrayna | 261.782 |

Beynəlxalq məlumat bazası olan BMT-nin Comtrade bazasında Azərbaycanın dünya ölkələrindən idxal etdiyi xam dərinin (xəz dəridən başqa- Raw hides and skins (other than furskins) and leather) həcmi öz əksini tapmışdır. Yuxardakı cədvəldən də gördüyü kimi ən çox idxal məbləği Türkiyədən edilmişdir ki, bu ümumi idxalın 79.3 faizini təşkil edir.[6] Azərbaycana dəri ixracına görə ikinci yeri isə Çin tutur. Ölkədə yerli istehsal idxal edilmiş xammal hesabına həyata keçirilir. Azərbaycanda yeri dəri məmulatları istehsal etmək üçün yerli xammal mənbələrinin artırılması üçün çalışılsa da, bu, hələlik qənaət bəxş deyildir. Əgər biz ölkədə kəsilən iribuynuzlu və xırdabuynuzlu heyvanların dəri və dəri məhsullarını səmərəli şəkildə emal edə bilsək, bu, xam dəri ehtiyacını müəyyən həddə qarşılaya bilər. Ancaq problemli məqamlardan biri də odur ki, heyvanlarda dəri xəstəliklərinin olması onların dərilərinin tam şəkildə hasilat prosesinə cəlb edilməsinin qarşısını alır. Bundan dolayı qəbul edilmiş “Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına”dair Strateji Yol Xəritəsində də ölkə daxilində mal-heyvanlara fito-sanitar qaydada müayinə və müalicə-profilaktik tədbirlərinin həyata keçirilməsi məsələsi xüsusi vurğulanıb. Ölkəyə idxal olunan iri və xırdabuynuzlu heyvanların dərilərindən də xam dəri kimi geniş istifadə oluna bilər. Çünki idxal edilmiş diri buynuzlular potensial dəri deməkdir. Onlardan səmərəli və hərtərəfli istifadə edilməsi bir növ resurs bazasını artıracaqdır. Təbii ki, həmin heyvanların sağlamlığı və hər hansı dəri xəstəliklərinin olub-olmaması yoxlanılmalıdır ki, daha intensiv istehsalat prosesi baş versin.

İri buynuzlu heyvanların idxalında son illər azalma müşahidə olunur. Təbii ki, heyvanların ölkəyə gətirilməsində ilk prioritet əhalinin ət və ət məhsullarına olan tələbatını ödəmək məqsədi daşıyır. Dəri xammalı bu prosesdə aralıq istehlak rolunu oynayır. Son illər ölkədə mal əti istehsalının əvvəlki illərə nisbətən artması idxalın müəyyən qədər azalmasında özünü göstərib. Belə ki, 2016-ci ildə 130 min ton ölkə daxildə mal əti istehsal olunduğu halda, 2021-ci ildə bu rəqəm 145 min ton olub.

[6] https://comtradeplus.un.org/

## 4. Ölkədə gön-dəri məmulatları istehsalının stimullaşdırılmasına yönəlik addımlar

Daxili bazarı qorumaq üçün hökumət dəri məmulatlarının həm idxalına, həm də ixracına gömrük rüsumları və vergilər tətbiq edir və 2016-cı ildən başlayaraq idxal mallarına qarşı vergi yükü daha da artırılıb.

Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli, 80 saylı "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" Qərarına[7] əsasən dəridən hazırlanmış müxtəlif növ çanta, geyim, ayaqqabı və məişət məmulatları 15% dərəcə ilə idxal rüsumuna cəlb edilir. Bundan əlavə, Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli, 11 saylı "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Qərarına[8] əsasən, dəri məmulatlarına vergi güzəşti və azadolunmalar tətbiq edilmir və bu məmulatlar idxal edildikdə Vergi Məcəlləsinin 173.1-ci maddəsinə əsasən, idxal olunan əmtəənin dəyərinin 18%-i həcmində ƏDV-yə cəlb olunur. Vergi Məcəlləsinə 16 dekabr 2016-cı il tarixli 454-VQD nömrəli Qanunla edilmiş dəyişiklik əsasında idxal olunan xəz-dəri məmulatları aksiz vergisinə cəlb edilməyə başlayıb. Vergi Məcəlləsinin 190.4-cü maddəsinə əsasən, ölkəyə gətirilən xəz dəri məmulatlarına topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi məbləğində aksiz dərəcələri tətbiq edilir.

Qeyri-neft sektorunun inkişafının təşviqi istiqamətində qəbul edilən bəzi qərarlar dəri məmulatları sektorunda çalışan sahibkarların investisiyalarının genişləməsi üçün müəyyən imkanlar yaradır. Belə ki, Vergi Məcəlləsinə 19 yanvar 2016-cı il tarixdə edilən dəyişiklik və əlavələrə əsasən investisiya təşviqi aldıqda:

- ✓ fərdi sahibkarlar 7 il müddətinə gəlir vergisinin, hüquqi şəxslər mənfəət vergisinin 50%-i səviyyəsində vergidən;
- ✓ həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün ƏDV-dən;
- ✓ həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə əmlak vergisindən;
- ✓ həm hüquqi, həm fərdi sahibkarlar investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə torpaq vergisindən azaddırlar.

Bundan əlavə, istehsal məqsədli avadanlıqların idxalına güzəştlər tətbiq edilir. "Gömrük tarifi" haqqında Qanunun 20.0.16-cı maddəsinə əsasən, dəri məmulatları aşağıdakı hallarda gömrük rüsumundan azad və ya qismən azad olunurlar.

- ❖ Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;

[7] https://e-qanun.az/framework/28144
[8] https://e-qanun.az/framework/7350

- Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 7 il müddətinə;
- Azərbaycan Respublikasının Prezidentinin qərarına əsasən yaradılan sənaye parkında Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 5 il müddətinə.

Ölkə prezidentinin 20 aprel 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası[9]" isə investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi prosedurlarını müəyyən edir. Qaydalara görə, investisiya təşviqi sənədi almış sahibkara müvafiq qurğu və avadanlıqların idxalı üçün təsdiqedici sənəd təqdim olunur və onlar bu sənəd əsasında həm Vergi Məcəlləsinin, həm də "Gömrük tarifi" haqqında Qanunun verdiyi güzəştlərdən bəhrələnmək imkanı qazanırlar.

Mühüm normativ-hüquqi sənədlərdən biri qeyri-neft məhsullarına ixrac təşviqinin verilməsi qaydalarıdır. "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin 1 mart 2016-cı il tarixli 811 saylı Fərmanı ilə ölkə ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilməyə başlanıb. Ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil edir. Bu Fərmanın icrası olaraq Nazirlər Kabinetinin 6 oktyabr 2016-cı il tarixli 401 saylı Qərarı ilə ixrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının siyahısı" təsdiq edilib və üstü təbii dəridən olan ayaqqabılar, təbii dəridən geyim əşyaları və digər məmulatlar bu siyahıya daxil edilib. Qərar əsasında təbii dəridən olan geyim və ayaqqabılara ixrac təşviqinin baza məbləğinə 2 əmsal tətbiq edilir. Bu o deməkdir ki, bu mal qruplarının ixracı zamanı gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 6 faizi məbləğində vəsait alacaq.

[9] https://e-qanun.az/framework/32604

## 5. Dəri istehsalının texnoloji mərhələləri

Dəri istehsal etmək olduqca zəhmətli və uzun bir proses tələb edir. Bu proseslərin həyata keçirilməsi üçün ilk növbədə xammal təmin edilməlidir. Ancaq iş təkcə xammalla bitmir. Dəri emalı prosesini həyata keçirmək üçün maddi-texniki baza, ixtisaslı kadrların mövcudluğu olduqca önəmli ehtiyacdır. Dəri emalının mərhələlərini nəzərdən keçirsək aşağıdakı prosesləri görmüş olarıq:

**Qorunması:** Heyvandan dəri soyulduqdan sonra o, bakterial fəaliyyətə son dərəcə açıq olur və sürətlə keyfiyyətini itirməyə başlayır. Bunun qarşısını almaq üçün dəri müxtəlif üsullarla qorunur. Ən çox tətbiq olunan üsul dərinin duzlanmasıdır. Duzlama prosesi ilə dərinin su səviyyəsi aşağı düşür və bakteriya aktivliyinin qarşısı alınır.

**İslatma və yumşaltma**: İslatma prosesi ilə dərinin təbii şişmiş quruluşu geri qaytarılır və konservasiya prosesi üçün istifadə edilən çirkli materiallar, həll olunan zülallar və maddələr dəridən çıxarılır.

**Əhəngləmə:** Dəridəki tüklər və epidermis təbəqəsi çıxarılır, dəridəki təbii yağlar sabunlaşdırılır və aşılayıcı maddələrin bağlanmasını və möhkəm bir quruluş meydana gətirməsini təmin edəcək aktiv qruplar sərbəst buraxılır.

**Ətləmə:** Dəri istehsalında əhəmiyyəti olmayan əhəngləmə prosesi ilə şişməyə məruz qalan dərinin yağlı təbəqəsi olan hipodermis mexaniki olaraq dəridən çıxarılır.

**Parçalama:** Bu mərhələ istəniləndən çox qalın olan dərinin, həqiqi dəri istehsalında istifadə ediləcək dəri hissəsinin əldə edilməsi üçün kəsikdən ayrılması prosesidir.

**Əhəngdən təmizlənmə:** Kimyəvi və ya mexaniki olaraq dəriyə yapışan əhəngin kalsifikasiya prosesi ilə çıxarılması prosesidir.

**Təmizləmə:** Xüsusi fermentlərin istifadəsi ilə dəri istehsalında işləməyən zülal növü həll edilir.

**Yağsızlaşdırma:** Yağ nisbətinin yüksək yağlı qoyun dəriləri kimi dərilər üçün problem yaratmayacaq səviyyəyə endirilməsi prosesidir.

**Turşulama:** Bu, xrom aşılayıcı materialların dəri hissəsinə enərək aşılama prosesini həyata keçirə bilməsi üçün dərinin turşulaşdırılması prosesidir.

**Aşılama:** Əvvəlki proseslərdə mümkün qədər təmizlənmiş dərinin əsas tərkib hissəsi olan kollagenin parçalanmadan və çürümədən istifadə edilə bilən möhkəm bir quruluşa çevrilməsidir.

**Çeşidləmə:** Aşılanmış dərilərin dəri vəziyyəti və s. kimi keyfiyyət xüsusiyyətlərinə görə təsnif edilməsi prosesidir.

**Sıxma:** Dəridən artıq suyun mexaniki şəkildə çıxarılması prosesidir.

**Yarma (Aşılamadan Sonra):** İstəniləndən qalın olan dərinin, həqiqi dəri istehsalında istifadə ediləcək dəri hissəsini əldə etmək üçün kəsikdən ayrılması prosesidir. Beləliklə, dəri istədiyiniz təraş qalınlığına yaxınlaşdırılır. Bundan əlavə, əldə edilən parçalanmış dərilər müxtəlif üsullarla qiymətləndirilir. Dərilər əhəngdən ayrılıbsa, adətən aşılandıqdan sonra parçalanmır.

**Təraş:** Dərilər mexaniki olaraq istənilən bitirmə qalınlığına uyğunlaşdırılır.

**Neytrallaşdırma:** Bu, dərinin turşuluğunun azaldılması prosesidir ki, sonrakı proseslərdə istifadə olunacaq boyalar, doldurucular və sürtkü yağları dəriyə yaxşı təsir göstərə bilsin.

**İşlənməsi:** İstədiyiniz dolğunluğa, möhkəmliyə sahib olmaq üçün dərinin müxtəlif sintetik və yaxud bitki mənşəli maddələrlə işlənməsidir. Beləliklə, aşılanma prosesi yaxşılaşır.

**Boyama:** Dərinin müxtəlif növ boyaq maddələri ilə rənglənməsi prosesidir.

**Yağlama:** Dərinin istənilən yumşaqlıq və tutacaqla istifadəyə yararlı formaya çevrilməsi üçün müxtəlif sürtkü yağları ilə işlənməsi prosesidir.

**Açıq sıxma:** Dərinin mexaniki olaraq susuzlaşdırılaraq açıldığı prosesdir.

**Qurutma:** Dərinin müxtəlif üsullarla nəm səviyyəsinin aşağı salınaraq qurudulması prosesidir.

**Bitirmə:** Hazır dərinin istənilən xassələrinin əldə olunduğu prosesləri əhatə edən geniş mərhələdir. Dəri son vəziyyətinə bitirmə prosesləri ilə verilir.

Dəri istehsalçısı bu prosesləri həyata keçirə bilmək üçün onlara lazım olan əsasən texnika və texnologiyadır. Həmçinin ilkin prosesləri aparmaq üçün kadrlar, son mərhələlərdə isə ixtisaslı kadrların mövcudluğu xüsusi önəm daşıyır. Bunlar öz-özlüyündə istehsal gücünə təsirsiz ötüşmür. Dövlət Statistika Komitəsinin dərc etdirdiyi statistik müayinəyə əsasən, Azərbaycanda dəri və dəridən məmulatların, ayaqqabı istehsalının istehsal gücündən istifadə səviyyəsi 43.6 faizdir. Qoyun və quzu dərilərinin istehsal gücündən istifadə göstəricisi isə 73 faizdir.

İstehsal gücünün az olmasının səbəblərindən biri avadanlıqların istehsal gücündən tam istifadə olunmamasıdır. İribuynuzlu qaramalın və atların növünə aid olan heyvanların dərilərinin (ədədlə) istehsalı sahəsində avadanlıqların köhnə olması (50%) və yüksək ixtisaslı (peşəkar) kadr çatışmazlığı əsas problemlər sırasındadır. Qoyun və quzu dəriləri sahəsində peşəkar kadrların çatışmazlığının təsiri isə 100 faizdir. [10]Ayaqqabı üçün dəri məhsullarında bu gücdən xammal (material) çatışmazlığı (50%) səbəbindən istifadə oluna bilmir. İxtisaslı kadr çatışmazlığı burda da hiss olunur. İribuynuzlu qaramalın bütöv olmayan dərisindən hazırlanan gön (ton) sahəsində də əsas səbəb 100% olaraq tələbatın azlığı (sifarişlərdə nəzərdə tutulan işlərin həcminin azalması, sifarişlərin mövsümi xarakter daşıması və s.) göstərilir. Son məhsul olan ayaqqabı istehsalında da avadanlıqların istehsal gücündən tam istifadə olunmamasının səbəbi 100 faizlik olaraq tələbat azlığı kimi qeyd edilib. Bu sahədə quraşdırılan avadanlıqların istismar müddətinə görə də təsnifləşdirilməsinə ehtiyac var. Heyvan dərilərinin, aşılanmış dərinin emalı, yaxud

[10] https://www.stat.gov.az/source/industry/az/industry_guc_2020.pdf

ayaqqabı və sair məmulatı hazırlamaq və ya təmir etmək üçün maşınların istismar müddətinə görə bölgüsü aşağıdakı kimidir.

- 5 ilədək- 31.3%
- 5-9 il arası - 30.1%
- 10-19 il arası - 36.9%
- 20 il və daha çox - 1.7%.

Bu avadanlıqlar əsasən Almaniya, Çin, İran, İtaliya və Türkiyə istehsalıdır.

## 6. Nəticə və tövsiyələr

Araşdırma nəticəsində məlum oldu ki, ölkədə aşınlanmadan başqa digər emala məruz qalmayan dərinin həcmi son illər kəskin artıb, emal edilmiş dərinin miqdarında isə əsasən sabit azalma müşahidə edilib. Ayaqqabı istehsalına nəzər yetirdikdə isə onun natura ilə ifadəsi 2017-ci ildən yüksək artım tempi ilə artıb. Burda sual ortaya çıxır ki, əgər ölkədə emal edilən dəri azalırsa, bəs ayaqqabı istehsalı necə artır? Tədqiqat çərçivəsində Dövlət Statistika Komitəsinə ünvanladığımız sorğuya verilən cavaba əsasən, son illərdə aşılanmadan sonrakı emala məruz qalmamış dəri məmulatlarının ixrac edilməsi "emal edilmiş dəri" məhsullarının istehsalının azalmasına səbəb olub. Bu səbəbdən ayaqqabı istehsalı əsasən idxal olunmuş dəridən istifadə olunmaqla həyata keçirilib. Ayaqqabı istehsalının natura ilə ifadəsi artsa da, faktiki dəyərlə ifadəsində azalmalar müşahidə edilir. Belə ki, faktiki dəyərlə ifadəsinin ən yüksək olduğu dövr 2012-ci ildir və bu dövrdə 29.6 milyon dollarlıq ayaqqabı istehsal olunub. Natura ilə ifadədə isə bu göstərici 511 min cüt olub. Ən yüksək natura göstəricisi 2021-ci ildə qeydə alınıb ki, bu da 1 milyon 214 min cütdür. Faktiki qiymətlə yaradılan dəyər isə 22.3 milyon dollar həcmindədir. DSK-nın sorğuya cavabında bunun səbəbi kimi məhsulun maya dəyərini və bazardakı qiymət indeksinin dəyişkən olduğu bildirilir.

**Araşdırmamız əsasında ölkəmizdə gön-dəri və dəri məmulatları sahəsinin inkişafına mane olan problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:**

- Keyfiyyətli dərinin ixrac olunması;
- Gön-dəri sənayesinə investisiyanın az olması, xarici investorların yoxluğu;
- Bir çox ət kəsim məntəqələrində kəsim zamanı dərilərin yarasız və ya az yararlı hala salınması;
- İribuynuzlu heyvanlarda dəri xəstəliklərinin yayılması;
- İdxal və ixracın, istehsal və istehlakın uçotunun düzgün aparılmaması;
- Yüksək ixtisaslı kadrların çatışmazlığı;
- Avadanlıqların bəzilərinin istismar müddətinin çoxluğu, müasir texnologiyanın azlığı
- Bu sahədə elmi tədqiqatların kifayət qədər aparılmaması və onun istehsalat prosesinə tətbiq edilməməsi

**Dəri məmulatları sektorunu inkişaf etdirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilir:**

- ❖ Ölkəyə gətirilən dəri məmulatlarının keyfiyyətinə nəzarətin gücləndirilməsi:
- ❖ Bu sahəyə investisiya cəlb edilməsi, xüsusilə xarici investorların marağını cəlb edəcək siyasətin təşkili;
- ❖ Dəri xəstəliklərinin qarşısını almaq üçün lazımi tədbirlərin görülməsi;
- ❖ İxrac, idxal uçotunun düzgün aparılması üçün mexanizmlərin inkişafı və ona nəzarətin gücləndirilməsi;
- ❖ Müasir istehsal avadanlıqlarının sektorda geniş istifadə edilməsi və bunun üçün lazım olan dövlət dəstəyinin artırılması;
- ❖ Elmi tədqiqatların istehsalat prosesinə tətbiq edilməsinin yüksəldilməsi;

- Yüngül sənayenin, xüsusilə dəri sektorunun inkişafını hədəfləyən xüsusi dövlət proqramının hazırlanması;
- Yerli istehsalın xammal idxalından asılılığının azaldılması, yerli xammalın istifadəsinin stimullaşdırılması;
- Dəri xammalının keyfiyyətinin artırılması üçün lazım olan tədbirlərin görülməsi;
- Məhsul istehsal edərkən yerli istehlak bazarında tələbin düzgün qiymətləndirilməsi;
- Dəri məmulatları istehsalı sahəsində yüksək ixtisaslı kadr hazırlığına diqqətin artırılması, peşə təhsil müəssisələrində bu sahə üçün uyğun ixtisasların yaradılması

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI